# Beynəlxalq qurumların seçki bəyanatı anti-Azərbaycan dairələrin arzusunu gözündə qoydu

***Seçki administrasiyası resurslarla yaxşı təmin olunmuş və qanunvericilikdə müəyyən edilən son tarixlərə cavab vermiş, Mərkəzi Seçki Komissiyası ( MSK) şəffaf fəaliyyət göstərmək üçün razılaşdırılmış səylər göstərmiş və beynəlxalq müşahidəçiləri xoş qarşılamışdır.***

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB), ATƏT-in Parlament Assambleyası (ATƏT PA) və Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) birgə fəaliyyəti olan müşahidə missiyasının fevralın 10-da keçirilən mətbuat konfransı iştirakçılarına payladığı ilkin bəyanatdan.**



Ölkəmizdəki hərtərəfli inkişafı gözü götürməyən xarici dairələrin əlində alətə çevrilmiş daxili bədxahlarımız yuxarıda adı çəkilən üç Avropa qurumunun 9 fevral parlament seçkiləri barədə verəcəyi bəyanatı çox səbirsizliklə gözləyirdilər. Onlar elə bilirdilər ki, Avropa qurumları Azərbaycan seçki administrasiyasını ciddi tənqid edəcək, çoxsaylı nöqsan və iradlarla çıxış edəcəklər. Amma, gözlədiklərini eşidə bilmədilər. Doğrudur, adı çəkilən qurumların müşahidə missiyasına rəhbərlik edən şəxslər seçki prosesində bir sıra nöqsan gördüklərini də dedilər və bəzi iradlar tutuldu. Ancaq onların həmin "arqument"ləri seçkinin ümumi nəticələrinə təsir etmək iqtidarında deyildi.

Bunu görən, daha doğrusu kəskin tənqid gözləyərək tərif və ölkəmizin ünvanına xoş sözlər eşidən bəzi insanlar qeyd olunan mətbuat konfransında nə danışacaqlarını unutdular. Mətbuat konfransında "Xalq qəzeti" əməkdaşının avropalı parlamentarilərə xitabən dediyi "Hansısa seçki məntəqəsində bülletenlərin sayılması zamanı yol verilmiş kiçik xətanı görürsünüz, amma son otuz ildə yurd-yuvasından didərgin salınaraq bütün hüquqları pozulmuş bir milyondan çox azərbaycanlının taleyi ilə maraqlanmırsınız" – iradına ikili münasibətin şahidi olduq. ATƏT-in qısamüddətli müşahidə missiyasının xüsusi əlaqələndiricisi və rəhbəri Artur Gerasimov dərhal cavab verdi ki, biz azərbaycanlıların həmin kədərini həssaslıqla qəbul edirik və dedikləriniz həqiqətdir. Ancaq həmin məsələ ilə ATƏT-in başqa qurumu məşğul olur. Zalda atılıb-düşməklə özünü gözə soxmaq istəyən müxalifət təmsilçilərimiz isə dəfələrlə replika atdılar ki, biz buraya Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün gəlməmişik.

Xatırladaq ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB), ATƏT Parlament Assambleyası və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndələrindən ibarət Beynəlxalq Seçki Müşahidə Missiyası (BSMM) həmin mətbuat konfransında Milli Məclisə növbədənkənar seçkilərlə bağlı ilkin qənaətlərini açıqladılar. Biz orada şahid olduq ki, hesabatda bir sıra müsbət məqamlar da yer alır. Məsələn, çoxlu sayda namizədin qeydə alınması, namizədlərin qeydiyyatı prosesinin inklüzivliyi, namizədlərin sırasında 19 siyasi partiya nümayəndələrinin təmsil olunması, seçkinin 89 min yerli, 883 beynəlxalq müşahidəçi tərəfindən izlənilməsi … müsbət hallar kimi qeyd edilirdi.

Üstəlik, vurğulanırdı ki, seçki administrasiyası resurslarla yaxşı təmin olunmuşdu və qısa vaxta baxmayaraq, qanunla müəyyən edilmiş bütün müddətlərə riayət olunub. MSK səsvermə prosesini şəffaf surətdə izləmək üçün şərait yaradıb və beynəlxalq müşahidəçilərə münasibətdə xoş məram nümayiş etdirib. İclaslar müşahidəçilər və mediaya açıq idi. Qərarlar, bir qayda olaraq, həmrəyliklə qəbul edilir və vaxtı-vaxtında sayta yerləşdirilirərək şəffaflığı artırıb.

Səsvermə prosesində şəffaflığın təmin edilməsi məqsədilə seçki məntəqələrində min kameranın yerləşdirilməsi təqdir olunur, çoxsaylı məcburi köçkünlərin ortaya çıxmasına səbəb olmuş Ermənistanla münaqişə ilə əlaqədar Azərbaycanın nəzarətindən tam və qismən kənar olan 10 seçki dairəsində seçkilər keçirilə bilməməsi isə təəssüflə qeyd edilib. Üç Avropa qurumunun adından verilən bəyanatda açıq şəkildə vurğulanıb ki, məcburi köçkünlərin seçki hüquqlarının təmin edilməsi sahəsində mühüm işlər görülmüşdür.

Bu təqdiredici faktları və tənqidi fikirləri eşidən Əli Kərimlinin himayəsi altında olan müxalifət təmsilçiləri avropalı parlamentariləri kəskin tənqid etdilər ki, siz saxta yolla seçilmiş Azərbaycan parlamentinin deputatları ilə yan-yana əyləşib işləməyi özünüzə necə sığışdıracaqsınız? Fikrimizcə, bu, təkcə səviyyəsizlik yox, həm də satqınlıq idi. Azərbaycan vətəndaşı avropalı deputatlara çağırış səsləndirirdi ki, öz qurumlarınızda Azərbaycan deputatları ilə yanaşı əyləşməyin.

Bundan başqa, müxalifətin Milli Şurasının təmsilçisi açıq şəkildə tələb etdi ki, Azərbaycan nümayəndə heyətinin AŞPA-dakı səlahiyyətinə xitam verilməsi məsələsi qaldırılsın. Əvvəllər çoxsaylı anti-Azərbaycan çıxışları ilə yadda qalan Frank Şvabe "bizim müxalifətçi"ni əl silinmiş çirkli dəsmala çevirdi: " Həmin məsələnin gündəliyə gətirilməsi mümkün deyil. Çünki həm buna əsas yoxdur, həm də AŞPA-da Rusiya nümayəndə heyəti ilə bağlı yaşananlar vəziyyəti daha da mürəkkəbləşdirib". Yəni "bizimkilər"dən fərqli olaraq, avropalılar əlavə problem yaratmaq istəmirlər. Həm də açıq şəkildə deyilir ki, həmin məsələnin qaldırılması üçün əsas yoxdur.

Hansısa deputatlığa namizədin nümayəndəsi də hirsli, hikkəli çıxışı ilə özünü rüsvay elədi. O, avropalılardan tələb etdi ki, fevralın 9-da seçilmiş Azərbaycan deputatlarının legitimliyi tanınmasın. ATƏT-in qısamüddətli müşahidə missiyasının rəhbəri Artur Gerasimov isə vurğuladı ki, legitimlik məsələsini yalnız Azərbaycan xalqı müəyyən edir.

Azərbaycanın ünvanına deyilən xoş sözlər ölkə rəhbərliyinin seçki prosesinə mükəmməl hazırlaşmasının və səsvermə prosesini izləmək üçün dünyanın hər yerindən müşahidəçilər dəvət etməsinin nəticəsi idi. Dünya ictimaiyyəti fevralın 9-da bir daha gördü ki, Azərbaycan hökumətinin beynəlxalq ictimaiyyətdən gizlədəcəyi, çəkinəcəyi bir problemi yoxdur və istənilən beynəlxalq təşkilatla konstruktiv əsasda əməkdaşlığa hazırdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***